# Ankarada azərbaycanlı gənclərin fəaliyyəti müzakirə olunub



**Türkiyənin paytaxtında Azərbaycan Gənclərinin Ankara Həmrəyliyi (AGAH) İctimai Birliyinin hesabat konfransı keçirilib.**

Diasporla İş üzrə Dövlət Komitəsindən verilən məlumatda bildirilir ki, TÜRKSOY-un mərkəzi qərargahında gerçəkləşən tədbirdə Türkiyənin millət vəkili, Türkiyə–Azərbaycan parlamentlərarası dostluq qrupunun üzvü Yaşar Karadağ, sabiq millət vəkili Sinan Oğan, Diasporla İş üzrə Dövlət Komitəsinin şöbə müdiri Fuad Kərimov, ölkəmizin Türkiyədəki səfirliyinin birinci katibi Elçin Allahverdiyev, Ankara Sağlıq və Sosial İnkişaf İnstitutunun rəhbəri Xatirə Həsənova, Yurtdışı Türklər və Akraba Topluluklar Başkanlığı sədrinin müavini Sait Yusuf və digərləri iştirak ediblər.

Tədbirdə AGAH-ın bir illik fəaliyyətini əks etdirən videoçarx nümayiş olunub.

AGAH-ın sədri Təbriz Raufoğlu, millət vəkili Y.Karadağ, Dövlət Komitəsinin şöbə müdiri F.Kərimov, S.Yusuf və E.Allahverdiyev çıxış edərək, təşkilatın bir il ərzində gördüyü işləri müsbət qiymətləndiriblər.

Daha sonra "Türkiyədə yaşayan azərbaycanlı gənclərə yönəlik dövlət siyasəti və onların diaspora fəaliyyətində iştirakı: mövcud vəziyyət və məsləhətlər" mövzusunda ilk panel baş tutub. "Türkiyə Respublikasının gənclər siyasətində azərbaycanlı gənclərin yeri" mövzusuna Servet Avşar, "Gənclərə yönəlik QHT-lərin iki dövlət arasındakı münasibətlərin inkişafında rolu və azərbaycanlı gənclərin diaspor fəaliyyətinə qatılması" mövzusuna isə Təbriz Arifoğlu moderatorluq ediblər. Tədbirdə S.Yusuf, Y.Karadağ, A.Çalışkan, S.Oğan, E.Allahverdiyev, X.Həsənova və F.Kərimovun çıxışları dinlənilib, fikir mübadiləsi aparılıb və auditoriyanın sualları cavablandırılıb.

Tədbir bədii hissə ilə başa çatıb.

***Samirə ƏLİYEVA,***
***"Xalq qəzeti"***

Xalq qəzeti.- 2019.- 30 oktyabr. S. 5.